*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 1* *ISSN 2663-4368*
*Səhifə: 143-147* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.1.143*

# Şəmsəddin Sivasinin "Əxlaq aynası" (Miratül-əxlaq) əsərinin nadir avtoqraf əlyazması

**İnci Qasımlı**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu
E-mail: iqasml@mail.ru

**Annotasiya.** Şəmsəddin Sivasi h.926/m.1520-ci ildə Tokatın Zilə qəsəbəsində dünyaya gəlmişdir. Xəlvətiliyin Şəmsiyyə qolunun qurucusudur. Azərbaycanda "Miratül-əxlaq", "Mənazilül-arifin", "Gülşən-abad" adlı 3 əsərinin 4 əlyazması mühafizə olunmaqdadır. XVI əsrin zəngin yaradıcılığa malik məşhur türk yazıçılarından sayılan Əbus-Səna Şəmsəddin Əhməd bin Əbül Bərəkat Muhəmməd bin Arif Həsən Şəmsəddin Sivasi kimi tanınmışdır. Əsmər olduğuna görə, mənbələrdə ona "Qara Şəmsəddin", "Qara Şəmsi" də deyildiyi göstərilir. Şeirlərini "Şəmsi" təxəllüsü ilə yazmışdır.
Türk mədəniyyətinə böyük töhfələr vermiş Şəmsəddin Sivasinin əsərlərinin bir çoxu çap olunmuşdur. Niyyətimiz qalan əsərlərin də üzərində çalışmaların artırılması və onların mədəniyyətimizə qazandırılması yönündədir. Xəlvətiyyə təriqətinin Şəmsiyyə şöbəsini qurmuş olan Şəmsəddin Sivasi, bir çox tələbə yetişdirmişdir. Ərəb və fars dillərini həmin dillərdə əsər yaza biləcək dərəcədə yaxşı bilən müəllif əsərlərində ağır və çətin anlaşılan cümlələrdən çox istifadə etməmişdir. Dini-təsəvvüfi ədəbiyyatın XVI əsrdə önəmli ədiblərindən olan Şəmsəddin Sivasinin məlum olan əsərləri həm mənzum, həm də mənsurdur.
**Açar sözlər:** Şəmsəddin Sivasi, türkçə əsərləri, ərəbcə əsərləri, farsca əsərləri, mənzum əsərləri, mənsur əsərləri

**Məqalə tarixçəsi:** göndərilib – 05.03.2024; qəbul edilib – 26.03.2024

# Rare autograph manuscript of the work "Miratu-l-ahlag" by Shamsaddin Sivasi

**Inji Gasimli**
Doctor of Philosophy in Philology, Associate professor
Institute of Oriental Studies named after Academician Z.M.Bunyadov of ANAS
E-mail: iqasml@mail.ru

**Abstract.** Shamsaddin Sivasi (926/1520) is the founder of the of Khalwati of Shamsiya. 4 manuscripts of 3 works "Miratu-l-ahlaq", "Menazilu-l-arifin", "Gulshen-i-abad" are protected in Azerbaijan. Known as one of the famous Turkish writers of the 16th century, Abus-Sena Shamsaddin Ahmed bin Abul Berekat Muhammad bin Arif Hasan Shamsaddin Sivasi. In Pechavi's "History", it is shown that Nazmi Muhammad was mentioned in the book as Gara Shamsaddin and Gara Shamsi, because he was a martyr in Hadayat al-ixwan. He wrote his poems under the pseudonym "Shamsi".

Most of the works by Shamsaddin Sivasi, which gave many works to Turkish culture, have been published. Our goal is to accelerate the work and to convey our culture as soon as possible. Shamsaddin Sivasi, who set up the Shamsiyya division of the Khalwatiyya sect, raised many students. The author who proved that he could write in Arabic and Persian did not use hard and difficult concepts in his writings. Shamsaddin Sivası, one of the most important writers of the sixteenth century, has many works of religious conservative literature.

**Keywords:** Shamsaddin Sivasi, Turkish works, Arabic works, Persian works, prosaic works, poetical works

**Article history:** received – 05.03.2024; accepted − 26.03.2024

## Giriş / *Introduction*

Şəmsəddin Sivasi 926/1520-ci ildə Tokatın Zilə qəsəbəsində doğulmuşdur. Xüsusilə "Mənaqibi-İmam-Əzəm", "Mənaqibi-Göhəri-yari-Güzin", "Həşt-behişt", "Süleymannamə", "Gülşən-abad", "Divan" və "Mövlud" adlı əsərləri ilə məşhurlaşmış mütəsəvvif müəllifdir. 7 yaşında ikən atası ilə Amasiyaya gedərək bir müddət onun Şeyxi və Seyyid Yəhya Şirvaninin xəlifəsinin xəlifəsi Müslihəddin Amasiyə, Məcidəddin Şirvaniyə tələbəlik etmişdir. Sonralar İstanbulda təhsilini daha da dərinləşdirərək müdərrisliyə qədər yüksəlmişdir. Təhsilini bitirdikdən sonra İstanbulda bir müddət müdərrislik etmiş, dörd Osmanlı sultanının (Qanuni Sultan Süleyman, II Səlim, III Murad, III Mehmed) hakimiyyəti illərində yaşamış, hamısından da hörmət və sevgi görmüşdür. Özünün "Nəqd əl-xatir" əsərində onu h.1003/1594/95-ci ildə Sivasda yazdığını qeyd etmişdir ki, bu zaman artıq orada yaşadığı anlaşılır.

Təsəvvüf qolu ilə diqqəti çəkən Sivasi, Xəlvətiyyə təriqətinin Şəmsiyə qoluna mənsubdur. Xəlvətiliyin Sivasiyyə qolunun qurucusudur. H.1006/m.1597-ci ildə vəfat edən müəllif Sivas Meydan Cami türbəsində dəfn edilmişdir. Dəfn olunduğu təkkənin üzərində sonralar ona türbə tikilmişdir. Mənaqibnamələrdə onun bir çox kəramətləri qeyd olunmuşdur.

## Əsas hissə / *Main Part*

### "Əxlaq aynası" ("Miratül-Əxlaq") əsəri

Şəmsəddin Sivasinin Azərbaycanda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda "Əxlaq aynası" [3], "Ariflərin mərtəbələri" [2], "Çiçəklərin söhbəti" [4] adlı 3 əsərinin 4 əlyazması mühafizə olunmaqdadır. Bu əlyazmalar haqqında Azərbaycanda ilk dəfə prof. A.Musayeva "Elmi əsərlər" jurnalının 2016-cı il 2(3) sayında geniş məlumat vermişdir [1, s.14].

XVI yüzilliyin zəngin yaradıcılığa malik məşhur türk yazıçılarından sayılan Əbus-Səna Şəmsəddin Əhməd bin Əbul Bərəkat Muhəmməd bin Arif Həsən Şəmsəddin Sivasi kimi tanınmışdır. Mənbələrdə əsmər olduğuna görə, ona "Qara Şəmsəddin", "Qara Şəmsi" də deyildiyi göstərilir. Özü isə şeirlərini "Şəmsi" təxəllüsü ilə yazmışdır.

Əsərlərində təsəvvüfi və dini fikirlərini anlatmağa çalışan Şəmsinin söz xəzinəsinin çoxunu ərəbcə və farsca kəlmələr təşkil etməkdədir. Bunlardan bəziləri, xüsusilə qafiyə yaratmaq üçün istifadə olunanlar, "Osmanlıca-Türkcə" lüğətdə yoxdur. Ancaq öz dillərinə aid lüğətlər vasitəsilə anlaşıla bilər.

Tamamilə sadə bir türk dilindən istifadə etdiyini deyə bilməyəcəyimiz Şəmsi ərəbcə, farsca kəlimələr istifadə edərkən olduqca bacarıqlıdır. Onun bu dilini son dərəcə təmtəraqlı, bəzəkli bir dil də saya bilmərik, çünki şeirlərinin bəzilərində son dərəcə axıcı bir dil istifadə etməsinə baxmayaraq, bəzilərində dili o qədər ağırdır ki, anlamaq çox çətindir. Bunun o dövrün mədəniyyəti və dünyagörüşü ilə, ya da Şəmsinin bağlı olduğu təriqətlə əlaqəli olduğunu demək olar.

"Əxlaq aynası" ("Miratül-əxlaq") əsəri 1588-ci ildə qələmə alınmış bir nəsihətnamə kitabıdır. 4520 beytdən ibarət olan əsər müəllifin həcmli əsərlərindən biridir. 20 hissədən ibarət olan əsərin ilk on bölümündə əxlaqi-həmidə, digər on bölümündə əvsafi-zəmimə anladılmışdır (Sivasi: Süleymaniye Kütüphanesi, Nu.2835). Əsər, gözəl əxlaq haqqında on bab və pis əxlaq haqqında on fəsildən meydana gəlir. Bütün bunları nəzərə alaraq bu qiymətli əsəri "ümumi əxlaq kitabı" kimi qiymətləndirmək də olar. Əsəri oxuduqca biz bu əsərin tam olaraq dini-təsəvvüfi bir nəsihətnamə olduğu qənaətinə gəldik. Çünki şair əsəri haqqında məlumat yazdığı "Müqəddimə"də "nəsih" kəlməsindən istifadə edir. Mövzunun işləndiyi bölümlərdə də tez-tez nəsihətamiz ifadələrlə qarşılaşırıq.

AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda Şəmsəddin Sivasinin "Əxlaq aynası" (Miratül-əxlaq) əsərinin nadir avtoqraf əlyazması üzə çıxarılmış və üzərində tədqiqata başlanmışdır, B-5724 şifrəli bu əlyazma "nadir avtoqraf əlyazmadır", – deyə bilərik. Müəllifin öz əli ilə əlyazmanın ön hissəsində aşağıdakı sözlər yazılmışdır:

**Şəmsi**
**Miratül-əxlaq**
**Müəllifdən**
**Öz xəttilə**
**Sivasidən yazılıbdır**
**Tarixi hicri**
**994**

Əlyazmanın birinci səhifəsində yazılanlar bizə bu əsərin Şəmsəddin Sivasinin öz əli ilə yazıldığını göstərir. Məlum səbəblərə əsaslanaraq bu əlyazmanın müəllifin avtoqraf əsəri olduğunu söyləyə bilərik. XVI əsrin məşhur şəxsiyyətlərindən biri olan Şəmsəddin Sivasi "Əxlaq aynası" adlı əsərini oxucuların mənliklərində olan pis xüsusiyyətlərini göstərəcək bir ayna olması düşüncəsi ilə yazmışdır. Şairin fikrinə əsasən, insan vücudu sağda ağıl və ruhun, solda isə nəfs və şəhvətin hakim olduğu bir dünyadır. Dünyaya, yəni insana hakim olmaq üçün sağ və sol daima mübarizədədir. Zəfər ağlın qalib gəlməsidir. Ağlın nəfsə qalib gəlməsi üçün nələrə sahib olduğunu və düşməninin xüsusiyyətini bilməyi lazımdır. Bunun üçün də onun bir rəhbərə ehtiyacı vardır. Şair bunları təfərrüatlı şəkildə insanlara çatdırmaq üçün "Əxlaq aynası"nı qələmə almışdır.

Məsnəvinin beyt sayı əsərdə bildirilməmişdir. Nüsxə qarşılaşdırmaları nəticəsində əldə etdiyimiz beyt sayı 4520-dir. Bu maraqlı məsnəvidə, sadəcə, bir beyt fars dilində, on doqquz beyt ərəb dilində, dörd beyt ərəb-türk dili qarışıq olmaq üzrə müləmmadır. Qalan 4500 beyt türk dilindədir. Yazılma tarixinə görə (H.996/ M.1588) "Əxlaq aynası" (Miratül-əxlaq) əsəri qədim Anadolu türkcəsinə aid xüsusiyyətləri tamamilə özündə əks etdirməkdədir. Əsərdə 25 tam mətn, 56 beytin içərisində istifadə etməklə cəmi 81 ayə, 43 tam mətn, 7 naqis olmaqla beytin içərisində, 5 açıqlaması ilə, 7 hekayə şəklində cəmi 62 hədis, 9 hekayə hz. Peyğəmbərin həyatı ilə əlaqəli hədislərdən istifadə etməklə cəmi 77 hekayə yer almaqdadır. Əsər məsnəvi nəzm şəklində yazılmış, məsnəvinin bütün qaydalarına riayət olunmuşdur.

## Nəticə / *Conclusion*

Bu əlyazma üzərində aparılan araşdırmalarda məqsədimiz AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda orta əsrin böyük türk yazıçısı Şəmsəddin Sivasinin dörd maraqlı və nadir, həm də çox yaxşı mühafizə olunmuş dəyərli əlyazmalarını araşdırmaçılara təqdim etmək və nəşrinə nail olmaqdır. Təbii ki, Türkiyədə Şəmsəddin Sivasinin bu əsərlərinin əlyazmaları var və bu əlyazmalar üzərində tədqiqatlar aparılmış, bir çoxu kitab şəklində nəşr olunmuşdur. Ancaq təəssüf edirik ki, bu əlyazmalar tədqiq olunarkən Azərbaycanda olan bu dəyərli əlyazmalardan istifadə olunmamış və bu barədə heç bir məlumat verilməmişdir. Məqsədimiz elm aləmindəki bu boşluğu doldurmaq və Xəlvətiyyə təriqəti ilə Azərbaycanla da bağlılığı olan Şəmsəddin Sivasinin Azərbaycanda tanınmasını təmin etməkdir.

**Ədəbiyyat / *References***

1. Musayeva, A. “Azərbaycanda Şəmsəddin Sivasi əlyazmaları”. – Bakı: “Hikmət” Elmi Araşdırmalar toplusu, 2004. – 126 s.
2. Sivasi, Ş. “Mənazilü-l-arifin”. – AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, ƏYİ, (994): M-309.
3. Sivasi, Ş. “Miratü-l-əxlaq”. – AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, ƏYİ, (994): B-5724.
4. Sivasi, Ş. “Gülşəni-abad”. – AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, ƏYİ, (994): B-5914.

## Редкая автографическая рукопись произведения Шамсаддина Сиваси «Miratül-əxlaq» (“Əxlaq aynası” – “Зеркало нравственности”)

**Инджи Гасымлы**
Доктор философии по филологии, доцент
Институт востоковедения имени З.М.Буниятова НАНА
E-mail: iqasml@mail.ru

**Резюме.** Шамсаддин Сиваси родился в 926 г. хиджры (1520 г.) в селении Зиля уезда Токат. Он основатель Шамсиййе – одного из направлений течения Халватиййа. В Азербайджане хранятся 4 рукописи 3-х произведений учёного: «Miratül-əxlaq», «Mənazilül-arifin», «Gülşənabad». Признанный благодаря богатому творчеству одним из знаменитых турецких авторов Əbus-Səna Şəmsəddin Əhməd bin Əbül Bərəkat Mühəmməd bin Arif Həsən известен под именем Шамсаддин Сиваси. В источниках его имя упоминается также как «Чернявый Шамсаддин», «Чёрный Шамси». Свои стихи он подписывал именем Шамси. В Турции было опубликовано значительное число вошедших в турецкую культуру произведений Шамсаддина Сиваси. Автор статьи намеревается в дальнейшем увеличить исследования остальных произведений, одарив ими нашу культуру.
Как основатель Шамсиййе – одного из направлений течения Халватиййа, Шамсаддин Сиваси воспитал много учеников. Зная арабский и фарсидский языки и создавая произведения на этих языках, автор избегал употребления трудных для понимания выражений. Нам известны стихотворные и прозаические произведения одного из значимых писателей религиозно-суфийской литературы XVI века Шамсаддина Сиваси.
**Ключевые слова:** Шамсаддин Сиваси, произведения на турецком, произведения на арабском, произведения на фарси, стихотворные произведения, прозаические произведения

**Şəmsəddin Sivasinin "Əxlaq aynası" ("Miratül-əxlaq") əsərinin ön hissəsində müəllifin avtoqraf yazısı**




**Bakı M.Füzuli adına Əlyazmalar İnstitutunda qorunan "Əxlaq aynası" ("Miratül-əxlaq") əsərinin B-5724 şifrəli əlyazmasının üçüncü səhifəsi**



**Bakı M.Füzuli adına Əlyazmalar İnstitutunda qorunan "Əxlaq aynası" ("Miratül-əxlaq") əsərinin B-5724 şifrəli əlyazmasının son səhifəsi**

